# *Nəriman Nərimanov – Güc birlikdədir*



**Nəriman Nərimanovun Tiflis quberniyasının jandarma idarəsi tərəfindən tərtib olunmuş məhkumluq vərəqəsi; 1909-cu il.**

İki aydan çoxdur Dövlət duması işləyir, lakin bu vaxtadək hökumət köhnə qayda ilə hərəkət edir. Qan su yerinə axır, dar ağacları hazırlanır, qazamatlarda nalə səsi ucalır…

Demək olurmu Duma vətənə layiqincə qulluq etmədi və etməyir?

Doğru[dur], zahirdə bir şey görünmür isə, batində çox çətin məsələlər həll olunur. Dumadan müqəddəm hər firqə öz proqramı ilə hərəkət edib hərə bir yol ilə əqidəsinin dalınca gedir idi. **Sol firqələr, doğru[dur], hamısı hürriyyət, bərabərlik, ədalət tələb edirdi. Fəqət proqramları bir olmağına görə, ali məqsədlərinə yeriş edərkən, yolları ayrılır idi. Açıq deməli: nöqtə bir olduqda, kimi düz, kimi kəsmə, əyri-üyrü yol ilə haman nöqtəyə çatmaq istəyirdilər… Bu firqələrin arasında ziddlik görünürdü, əqidə cəhətincə ittifaqları var isə də, haman əqidəni intişar etməkdə nifaq görünür idi.**

**Hökumətin əlində zəlil, əsir qalmış, ixtiyarlarını itirmiş millətlər həmin nifaqdan xilas deyildilər. Bunlar da öz xoşbəxtliyini hürriyyətdə görüb onu ələ gətirməyə cidd-cəhd edirdilər. Lakin yenə də yolları bir-birindən ayrı düşüb, biri etdiyi səhvi o biri təkrar edərdi. Bunların bir-birindən ayrı hərəkət etməklərinə əsil ümdə səbəb hər millətin məxsusi milli işləri olmuşdu…**

Camaatımız isə başsız qalıb, haraya və nə tövr hərəkət etmək məsələsində aciz qalmışdı. Hankı məsələni qabaq salmaq? Hankı tələbləri ən əvvəl [həll] etmək sualları hürriyyəti birdən-birə anlayan, hiss edən, lakin haman hürriyyətə hazır olmayan camaatımızı sərgərdan qoymuşdu.

Hürriyyətpərəstlər, ya hürriyyəti «davasız, qansız» almaq istəyən cürətsiz camaatımız başsız qalmışdı. Başsız qalıb da çətin məqamda özünü itirir idi…

**Bunlar bu halətdə olarkən dövlət yüz illərlə təlim, tərbiyə tapmış qoşunu ilə, yüz illərlə təcrübədən keçmiş qayda-qanunu ilə özünü mühafizət edirdi. Hürriyyət «qələsi»[ni] almaq üçün tövrbətövr yollar, qanunlar ilə yeriş edən qoşunlara orada-burada rast gələrkən asanlıqla qalib olurdu…**

Demək olar ki, aprelin 26-dək* hürriyyətpərəstlər dövlət ilə (partizan) davası edirdilər. Fəqət bu gündən, yəni Peterburqda Duma açılan gündən indiyədək hürriyyətpərəstlər dövlətin müqabilinə bir qayda-qanun ilə davaya çıxmışlar. **Hal-hazırda Duma sərkərdə (qlavnı komanduyuşi) hesab olunur; firqələr, millətlər, camaat tərəfindən seçilmiş vəkillər ümumi bir yol ilə gedərkən, əzəl pərakəndə, indi bir bayrağın altına cəm olmuş hürriyyətpərəstləri asan, kəsmə yol ilə aparmağa cidd-cəhd edirlər…**

Deməli dövlət indi partizan davası ilə meydana çıxıbdır. Duma üzvləri arasında ittifaq artdıqca firqələr, millətlər, camaat bir-birinə yavuqlaşıb oxları haraya, kimin ürəyinə və nə tövr atmağa hazırlaşırlar.

**Dövlət isə birliyin, ittifaqın gücünü çox [yaxşı] anlayıb da bir özgə hiylə ilə meydana çıxır. Camaat arasına iğtişaş saldı, millətləri bir-birilə yağı etdi. Bu məqsud ilə ki, bir neçə ay ixtiyarını, şan-şokətini əldə saxlasın, əlsiz-ayaqsız «cəmdəyin» axır nəfəsini bir az daha uzatsın…**

**Lakin olmur. Haqqı, həqiqəti batil edə bilmir, sel güclü olub içinə atılan ağır daşları çox asanlıqla diyirləyir, özünə yol açır; tarix öz bildiyini edir. Bununla belə dövlət genə də bir hiylə ilə meydana çıxıb axırda deməl istəyir: daha məndə can qalmadı, nəfəs uçdu, nəfəssiz cəmdəyimi harada lazımsa dəfn ediniz…**

Baxalım, dövlətin axırıncı hiyləsi nədir? Dövlətin hiyləsini Dumadan qabaq Vitte işlədirdi. İndi Trepova mühəvvəl olunubdur. «Patronlara heyfiniz gəlməsin» sözlərini soldatlara əzbər etdirən Trepov indi liberal olmuş desək, təəccübmü edəcəksiniz?

Bəli, bu vaxtadək cənab Trepova bu sifət yaraşmır[dı] isə də, indi özü-özünə yaraşdırır.

**Keçən nömrələrdə Dumada zəhmətkeş firqəsilə kadetlərin arasında olan bir neçə bəhslər teleqramlar vasitəsi ilə məlum olundu. İndi cənab Trepov huş-guşini bir yerə cəm edib ciddi-cəhd edir ki, bu iki firqə Dumada nəinki birləşməsin, hətta bir-birinə zidd olsunlar. Bu məqsud ilə Trepov özünü kadetlərə xeyirxah göstərib, onların əqidələrini bəyənir, onların firqəsindən vəzirlər təyin etməyi vədə edir…**

Trepovun belə hərəkətinə təəccüb etməməli. Vitte[də], Durnovoda belə hərəkətləri, belə bir hiyləni gördük. Bunlar özlərini hürriyyətpərəst cildində camaata göstərib deyirdilər: biz də siz əqidədəyik. Lakin, birdən-birə inqilabcuyan firqəsi istəyən kimi ümur-səltənəti camaatın ixtiyarına vermək olmaz. Ona vaxt lazımdır; əvvəl (konstitusiya) qanun-əsasi lazımdır… Konstitusiyanın quyruğunu göstərib camaatı bir növ sakit etdilər… **İnqilabcuyan firqəsini camaatın nəzərində pis qələmə verdilər. «Görürsünüz, biz hürriyyəti almaq istəyirik, lakin (sosial-revolyusionerlər) ictimaiyun-inqilabiyunlar bizə mane olurlar; layiqincə iş görməyə qoymurlar. Bunlar vətənin düşmənidirlər» – deyib də camaatın gözünü bağladılar. Revolyusionerləri camaatdan bir növ ayrı salıb təklədilər. Onları ovlamağa başladılar. Onları bir az sakit edəndən sonra konstitusiyadan görünən quyruğu da gizlətdilər…**

**İndi cənab Trepov [öz] yoldaşları getdiyi yeriş ilə hərəkət etmək istəyir. Kadetlərə xeyrxah olub da zəhmətkeş firqəsilə onların arasında ziddilik salmaq istəyir.**

Həqiqət, vəzirlər kadetlərdən olsa nəinki zəhmətkeş, hətta qeyri sol firqələr buna razı olmayacaqlar; çünki kadetlərin bir neçə səbəblərə görə dövlət ilə əlbir olmaqlarına çox ehtimal var… Belə olursa Duma üzvlərinin arasında nifaq olacaqdır. Nifaq olan surətdə dövlət deyəcək: siz bir-birinizlə dava edirsiniz, vətənə qanun verməyə layiq deyilsiniz, dağılınız, bir qeyri Duma çağırmaq lazım gəlir… Sonra kadetlərdən təyin olunmuş vəzirləri də bir-bir qovlayacaqdır…

Bəli, dövlət bu bir səbəbi ortaya atıb istəyir genə bir neçə aylar tüğyan etsin. Genə Rusiyanın torpağını qızıl qana bulasın. Genə dağılmış vətəni, milləti gözləri yolda qoysun. Bizim təsəvvürümüz[c]ə bu xam xəyaldır. Vətəndaşlarımız dövlətin hamı hiylələrini görüb bir düşdüyü tora daha düşməyəcəklər, dadı şirin zəhərli şərbətdən daha dadmayacaqlar… Nifaqın ləzzətini görüb də getdikcə ittifaqlarını qüvvətləndirəcəklər. Hamı bir yol ilə gedib ali məqsudinə çatacaqdır. **Güc birlikdə olmağını vəkillərimiz anlayıb trepovlar tikdiyi qələləri (şturm) hücum ilə alıb hürriyyət, bərabərlik, ədalət bayrağını qələnin üstə vuracaqlar…**

*Nər.*

**«Həyat» qəzeti № 145,**

**4 iyul 1906-cı il.**

*Qəzetin mətnindən çap olunur*

---

* – I Dövlət dumasının açılış günü (27 aprel) nəzərdə tutulur. *Red.*

** – Düşmən. *Red.*